

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 16 (22.927)

25 yanvar 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Yanvarın 24-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində “Neft və qaz sənayesi siyasəti üzrə liderlərin toplantısı” adlı sessiya keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada iştirak edib.

Dövlət və hökumət başçıları ilə yanaşı, dünyanın aparıcı enerji şirkətlərinin rəhbərlərinin, mütəxəssislərin və alimlərin də qatıldığı sessiyada neft və qaz sənayesinin perspektivləri barədə fikir mübadiləsi aparılıb.

* * *

Prezident İlham Əliyev yanvarın 24-də Davosda Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şevçoviç ilə görüşüb.

* * *

Yanvarın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu ilə görüşü olub.

* * *

Dövlətimizin başçısı həmin gün Davosda ABŞ-ın “Carlyle Group” şirkətinin həmtəsisçisi və icraçı direktoru Devid Rubinşteyn ilə görüşü olub.



## Yeni Azərbaycan Partiyasının ilk rayon təşkilatının təsis olunmasının 25 illiyi münasibətilə tədbir keçirilib

***Şərur şəhərindəki “Bahar” kinoteatrında təşkil olunan yubiley tədbirində Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev məruzə edib.***

Qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının ilk rayon təşkilatı 1993-cü il yanvarın 23-də əbədiyaşar liderimiz Heydər Əliyevin iştirakı ilə Şərur rayonunda yaradılıb. Həmin il havaların qarlı və şaxtalı olmasına baxmayaraq, ən ucqar kəndlərdən də partiyanın yüzlərlə təəssübkeşi Şərur şəhərindəki Mədəniyyət Sarayına toplaşmışdı. Ümummilli liderimiz konfransdakı çıxışında ağır günlərdə, torpaqlarımızın işğalının genişləndiyi, iqtisadiyyatın get-gedə iflic vəziyyətinə düşdüyü, ölkənin parçalanmaq təhlükəsi ilə üz-üzə qaldığı bir şəraitdə Yeni Azərbaycan Partiyasının yaranmasının zərurət olduğunu bəyan etdi və təşkilat üzvlərinin bu ağır problemlərin tezliklə aradan qaldırılması üçün partiyanın fəaliyyətində yaxından iştirak edəcəklərinə əmin olduğunu bildirdi.



“Yarandığı ilk günlərdə Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının 34 ərazi ilk təşkilatında 3 min nəfərə yaxın üzvü var idi ki, bunların da 12 faizini qadınlar, 17 faizini gənclər təşkil edirdi”, – deyən Əmir Babayev bildirib ki, hazırda rayon təşkilatı 87 ilk təşkilatda 10 min 424 nəfər partiya üzvünü birləşdirir. Onların 31 faizini – 3 min 238 nəfərini gənclər, 3 min 81 nəfərini – 29,5 faizini qadınlar təşkil edir. Ötən il Yeni Azərbaycan Partiyası sıralarına 121 nəfər qəbul olunub ki, bunların da 63-ü qadın, 112-si isə gənclərdir. Partiya üzvləri, xüsusilə gənclər mühüm dövlət vəzifələrinə irəli çəkilir, ictimai təşkilatlarda təmsil olunurlar. Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı üzvlərindən 6 nəfər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, 336-sı isə bələdiyyə üzvüdür.

Məruzəçi vurğulayıb ki, partiyanın Şərur Rayon Təşkilatı öz fəaliyyətini Yeni Azərbaycan Partiyasının 2013-cü ilin iyununda keçirilən V Qurultayı və Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il martın 16-da keçirilən iclasında qarşıya qoyulan vəzifələrin ardıcıl icrası istiqamətində qurub.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov çıxışında bildirib ki, 25 illik tarixə və böyük siyasi nüfuza malik Yeni Azərbaycan Partiyasının əsasının ulu öndər tərəfindən doğma diyarımızda qoyulması hər birimiz üçün qürurvericidir. Şərurda partiyanın rayon təşkilatının yaradılması isə həm də ozamankı Azərbaycan cəmiyyətinə önəmli bir siyasi mesaj idi. Rayon təşkilatının təsis konfransında partiyanın banisi, ümummilli liderimiz, o zamanlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan dahi şəxsiyyət Heydər Əliyevin iştirakı, burada yeni dövr üçün söylədiyi proqram xarakterli çıxışı, ölkənin düşdüyü mürəkkəb və ağır vəziyyətdən çıxış yolları barədə dəyərli fikirləri, heç şübhəsiz, rayon təşkilatının təsis edilməsini bütövlükdə Azərbaycanın ictimai-siyasi gündəminə gətirdi. Bu həm də tezliklə digər rayonlarda da təşkilatlanma işinə əyani nümunə oldu.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov tədbirdəki çıxışında deyib ki, Azərbaycanın ictimai-siyasi və mədəni həyatında xüsusi yeri olan Yeni Azərbaycan Partiyasının yaradılmasından ötən müddət ərzində respublikamız sürətlə inkişaf edib, onun tarixində çox mühüm hadisələr baş verib. Qeyd edilib ki, ötən 22 ildə muxtar respublikada əsrə bərabər quruculuq işləri görülüb. Bu, xalqa olan bağlılığın, dövlətə, Heydər Əliyev siyasətinə olan sədaqətin bariz nümunəsidir. Blokadada olmasına baxmayaraq, muxtar respublikada tikilən, yaxud əsaslı şəkildə yenidən qurulan çoxsaylı məktəblər, inzibati binalar, aparılan yaşıllaşdırma, quruculuq və abadlıq işləri sayəsində şəhər və kəndlərimizin siması tamamilə dəyişib. Bunu Şərur rayonunun timsalında da aydın görmək mümkündür. Təkcə ötən il rayonun müxtəlif yaşayış məntəqələrində bütün maliyyə mənbələrindən tikinti-quraşdırma işlərinə sərf edilən investisiyanın dəyəri 70 milyon manatdan çox olub.

Tədbirdə çıxış edən İbadulla kənd tam orta məktəbinin müəllimi Ülkər Məmmədova və Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Gənclər Birliyinin sədri Mirkərim Seyidov əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin bu gün də uğurla davam etdirildiyini, dövlət idarəçiliyində gənclərin potensialından geniş istifadə olunduğunu qeyd ediblər.

Sonra partiya üzvlüyünə yeni daxil olmuş bir qrup gəncə üzvlük vəsiqələri, partiya fəallarına hədiyyələr təqdim olunub.

**Elman MƏMMƏDOV**

## Naxçıvanda etibarlı enerji təminatı sistemi yaradılıb

***Dayanıqlı enerji təminatı cəmiyyət həyatının ümumi iqtisadi və mədəni inkişaf məsələlərində həmişə aktual mövzudur. Bununla yanaşı, muxtar respublikamızın blokadada olması ilə bu problemin həlli daha həyati əhəmiyyət kəsb edib, lakin vaxtında və operativ həyata keçirilən tədbirlər nəticəsində yaranmış çətinliklər heç vaxt kəskinləşməyib. Artıq Naxçıvan Muxtar Respublikası alternativ mənbələr hesabına özünün enerji təhlükəsizliyini tam təmin edir. Bununla yanaşı, qonşu ölkələrlə də enerji mübadiləsi aparır.***

Muxtar respublikamızın bütün yaşayış məntəqələrinin, sənaye və kənd təsərrüfatı sahələrinin keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təminatı sahəsində görülmüş işlərin xeyli hissəsi alternativ və bərpaolunan enerji mənbələri hesabına həyata keçirilir. Bu, eyni zamanda elektrik enerjisinin istehsalı, yüksək texniki göstəricilərə və qənaətcilliyə malik səmərəli enerji nəqli infrastrukturunun yaradılması və enerji satışının müasir tələblər səviyyəsində qurulması ilə xarakterizə olunur. Son illərdə enerji təhlükəsizliyinin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının hidroenerji və Günəş enerjisi potensialından istifadəni özündə ehtiva edən stansiyaların yaradılması bu sahədə nümunə sayılan layihələr kimi regionun investisiya cazibədarlığına da mühüm təsir edib.

2017-ci il də enerji təsərrüfatı üçün uğurlu olub. Belə ki, ötən il ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti tərəfindən elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, müxtəlifgərginlikli transformator yarımstansiyalarında qrafik əsasında əsaslı və cari təmir işləri aparılıb, tələbatçıların elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması, yaşayış sahələrinin, məktəblərin, sosial obyektlərin, hərbi hissələrin, nasos stansiyaları və artezian quyularının elektrik təchizatı üçün yeni transformator yarımstansiyalarının qoyulması, müxtəlifgərginlikli elektrik verilişi xətlərinin çəkilməsi, Naxçıvan şəhərində və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilib.





Hazırda muxtar respublikada 8 elektrik stansiyası fəaliyyət göstərir. Bunların ümumi gücü hesabına ötən il muxtar respublikanın elektrik şəbəkələrinə 474 milyon 323 min 355 kilovat-saat elektrik enerjisi daxil olub. Enerji təsərrüfatında həyata keçirilmiş tədbirlər arasında ilk olaraq 20 meqavat gücündə Günəş Elektrik Stansiyasının layihə gücünün daha 2 meqavat artırılması, Şahbuz Rayon Elektrik Şəbəkəsi üçün yeni inzibati idarə binasının və 35/10 kilovoltluq yeni “Şahbuz” ikitransformatorlu 12 min 600 kilovat güclü transformator yarımstansiyasının istismara verilməsi diqqəti cəlb edir. Bunlardan başqa, ötən il Araz SES-də 2 nömrəli hidroaqreqatda əsaslı təmir işləri aparılıb və 132/110 kilovoltluq “Araz” yarımstansiyasında yenidənqurma işləri başa çatdırılıb. 2017-ci il ərzində muxtar respublikanın şəhər və kəndlərində 1 ədəd 35/10 kilovoltluq və 20 ədəd 10/04 kilovoltluq yeni transformator yarımstansiyaları quraşdırılıb, 100-dən çox sayda transformator yarımstansiyaları təmir olunub, minlərlə metr uzunluğunda müxtəlifgərginlikli yeni elektrik verilişi xətləri çəkilib.

Muxtar respublikada enerji təhlükəsizliyi tam təmin olunsa da, yeni elektrik stansiyalarının tikintisi davam etdirilir. Ordubad rayonu ərazisində Araz çayı üzərində derivasiyatipli 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikinti işlərinin davam etdirilməsi və Culfa rayonunda gələcəkdə külək elektrik stansiyasının tikintisinin texniki-iqtisadi əsaslandırılması üçün ölçü qurğularının quraşdırılması bu istiqamətdə görülən tədbirlərdəndir.

Enerji infrastrukturunun səmərəli işləməsi üçün tələb olunan şərtlərdən biri də satılan enerjinin dəyərinin ödənilməsi, eyni zamanda israfçılığa və sui-istifadə hallarına yol verilməməsidir. Bu məqsədlə muxtar respublikada bütün istehlakçıların istifadə etdiyi elektrik enerjisinin dəqiq qeydiyyatını aparmaq üçün elektron sayğaclar qoyulub və enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilib. Naxçıvan şəhərində abonentlərin ev və mənzillərində ön ödənişli smartkarttipli sayğacların qoyulması işləri davam etdirilir. Son bir il ərzində 6019 ədəd belə sayğac quraşdırılaraq bu tip sayğacların sayı 20 min 765-ə çatdırılıb. Elektrik enerjisindən sayğacdankənar istifadə edilməsinin qarşısının alınması üçün mütəmadi reydlər keçirilir.

Kəsintisiz enerji təminatı hər bir ölkə üçün çox əhəmiyyətlidir. Buna görə də ölkəmizdə və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi sahəsində son illərdə görülən uğurlu işlərə ulu öndər Heydər Əliyevin memarı olduğu milli təhlükəsizlik arxitekturasının davamı kimi baxmaq mümkündür. Konkret olaraq, muxtar respublikamızın daxili enerji resursları ilə özünü tam təmin etməsi və hətta ixrac qabiliyyəti səviyyəsinə gəlib çatması bunun təsdiqidir.

**✍ Əli CABBAROV**

# Naxçıvan Muxtar Respublikası dinamik və dayanıqlı inkişaf yolundadır



*Ölkəmizdə uğurla həyata keçirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramları respublikamızın simasını tanınmaz dərəcədə dəyişib. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi siyasət, görülən işlər, irəli sürülən təşəbbüslər sayəsində əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də böyük uğurlar əldə edilib.*

2017-ci ilin sosial-iqtisadi inkişafının yekunları Naxçıvan Muxtar Respublikası üçün də uğurlu olub. Naxçıvan ölkəmiz üçün strateji əhəmiyyətli bir diyardır. Ümummilli lider Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasətində də bu amil həmişə üstün yer tutub, müdrik dövlət xadimi siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində Naxçıvanın möhkəmlənməsinə və inkişafına xüsusi diqqət və qayğı göstərib. Heydər Əliyev siyasi kursunu uğurla və yaradıcılıqla davam etdirən ölkə Prezidenti də Azərbaycanın bütün regionları kimi, Naxçıvanın da hərtərəfli inkişafına daim diqqət yetirmiş, burada aparılan işlərin yüksək səviyyədə və zövqlə görülməsini dəfələrlə vurğulamışdır.

Naxçıvan Muxtar Respublikasının son 20 ildən artıq bir dövrü – yeni inkişaf mərhələsi, inkişafın "Naxçıvan modeli" adlandırılır. Heydər Əliyev quruculuq xəttinə sədaqət blokadanın yaratdığı çətinliklərə baxmayaraq, muxtar respublikanın hərtərəfli, dinamik və dayanıqlı inkişafına gətirib çıxarmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club" ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqini müəyyənləşdirmişdir. Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq investisiya reytinqində lider olmuşdur.

Naxçıvan Muxtar Respublikasına səfər edən xarici ölkələrin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri "Caspian Energy" jurnalına müsahibələrində Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafını yüksək qiymətləndirmişlər. Onlar muxtar respublika rəhbərinin alternativ və bərpaolunan enerji mənbələrinə, innovasiya texnologiyalarının tətbiqinə, turizmin inkişafına, istehsal olunan məhsulların müxtəlifliyi və yüksək keyfiyyətinə, yerli iqtisadiyyatın inkişafı və regional məhsul çeşidlərinin şaxələndirilməsinə göstərdiyi səyləri yüksək qiymətləndirmiş və valeh olduqlarını söyləmişlər.

Qeyd olunan bu təşkilatın 18 parametr və 6 qrup üzrə (sosial-demoqrafik göstəricilər, sosial-iqtisadi vəziyyət, işgüzar mühit, infrastrukturun qurulması, insanların rifah halının artması və kənd təsərrüfatının inkişafı) hazırladığı təhlillər "Caspian Energy" jurnalının sonuncu nömrəsində dünyanın 70 ölkəsinin dövlət və hökumət başçılarına, həmçinin dövlət və transmilli şirkətlərin, beynəlxalq maliyyə institutlarının və aparıcı analitik mərkəzlərin, investisiya şirkətlərinin və reytinq agentliklərinin rəhbərlərinə təqdim ediləcəkdir. Bütün bunlar Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın artan dinamika ilə getdiyini bir daha təsdiq edir.

Yanvarın 23-də Heydər Əliyev Muzeyində Naxçıvan Muxtar Respublikasının 2017-ci ilin nəticələrinə görə investisiya reytinqində birinci yerə çıxması ilə bağlı tədbir keçirilmişdir. "Caspian European Club"un sədrinin birinci müavini Telman Əliyev Naxçıvan Muxtar Respublikasında investisiya və biznes mühitinin inkişafına verdiyi xüsusi töhfəyə görə Ali Məclis Sədrinə "Caspian European Club"un mükafatını təqdim etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tədbirdə çıxış edərək qazanılan uğuru belə dəyərləndirmişdir: ***"Ölkə Prezidentinin qayğısı ilə bu gün Azərbaycanın bütün regionlarında davamlı inkişaf təmin edilib. Sağlam rəqabət mühiti formalaşıb. Yaradılmış inkişafın nəticəsi olaraq Azərbaycan Respublikası Prezidentinin sədri olduğu "Caspian European Club"un 2017-ci il üçün ölkənin iqtisadi regionları üzrə 18 parametr üzrə hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxmışdır. Təbii ki, muxtar respublikamız bu uğura ölkə başçısının göstərdiyi böyük diqqət və qayğı, ümummilli liderin ideyalarına sədaqət və onun arzularının gerçəkləşməsi yolunda çəkilən zəhmət sayəsində nail olmuşdur".***

Muxtar respublikada inkişafın əsas göstəricisi ümumi daxili məhsulun inkişaf səviyyəsində özünü göstərir. Belə ki, 2017-ci ildə muxtar respublikada 2 milyard 701 milyon 663 min manat dəyərində ümumi daxili məhsul əldə olunmuşdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2016-cı illə müqayisədə 3,6 faiz artaraq 5 min 990 manat təşkil etmişdir.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş üç Dövlət Proqramı, həyata keçirilmiş iqtisadi islahatlar qısa dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunması ilə nəticələnmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş, ərazi, enerji və ərzaq təhlükəsizliyi təmin edilmişdir.

Artıq bir neçə ildir ki, muxtar respublika iqtisadiyyatında sənaye digər sahələri üstələyərək, ön mövqeyə çıxmış və aparıcı rola malik olmuşdur. Muxtar respublikada 1990-cı ildə 52, 1995-ci ildə 56, 2010-cu ildə 423, 2017-ci ildə isə 442 sənaye müəssisəsi fəaliyyət göstərmiş və keçən il 967 milyon 60 min manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 2016-cı ildəki göstəricini 1,4 faiz üstələmişdir.

Muxtar respublikanın ümumi daxili məhsulunda tikinti-quraşdırma işləri xüsusi yer tutur. 2017-ci ildə 933 milyon manatdan artıq tikinti-quraşdırma işləri görülmüşdür. Son illərdə yeni və müasir Naxçıvan qurulmuş, quruculuq və abadlıq işləri muxtar respublikanın paytaxtı ilə yanaşı, ən ucqar kəndlərini də əhatə etmişdir. Muxtar respublikada kənd və xidmət mərkəzlərinin tikintisinə diqqət artırılmış, 2011-2017-ci illərdə 96 kənd mərkəzi istifadəyə verilmişdir.

Muxtar respublika iqtisadiyyatında kənd təsərrüfatı hər zaman öncül mövqeyini qorumuş, əhalinin ərzaq məhsullarına, emal müəssisələrinin isə xammala olan tələbatının ödənilməsindəki rolu, həmçinin əhali məşğulluğunun təmin olunmasındakı əhəmiyyəti nəzərə alınaraq bu sahənin inkişafı diqqət mərkəzində saxlanılmışdır. Ali Məclis Sədrinin qeyd etdiyi kimi, "muxtar respublikada kənd təsərrüfatı əsas məşğulluq sahəsi kimi öz aktuallığını qoruyub saxlamış", 2017-ci ildə 93,4 min ton taxıl, 12,6 min ton qarğıdalı, 49 min ton kartof, 26,3 min ton ət, 82,9 min ton süd və digər kənd təsərrüfatı məhsulları istehsal edilmişdir. Ümumiyyətlə, ötən il 453 milyon 364 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2016-cı ildəki göstəricidən 4 faiz çoxdur.

2017-ci ildə ekoloji vəziyyətin daha da yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmiş, 550 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 455 mindən çox ağac və gül kolu əkilmişdir. Beləliklə, muxtar respublikanın yaşıl örtüyü 0,6 faizdən 14 faizə çatdırılmışdır.

Sosial-iqtisadi inkişafın sürətləndirilməsində nəqliyyat və rabitə sahələrinin də xüsusi yeri vardır. Bunun üçün yol-nəqliyyat sisteminin qurulması, nəqliyyat sahələrində infrastrukturun yenilənməsi davam etdirilmiş, 70 kilometr uzunluğunda yeni asfalt yol salınmış, 12 körpü, Naxçıvan şəhərində yerüstü piyada keçidi, Naxçıvan Beynəlxalq Hava Limanında karqo terminalı istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikasında müasir rabitə sistemi yaradılmışdır. Yeni texnologiyaların tətbiqi göstərilən xidmətlərin həcmi ilə yanaşı, onun keyfiyyətini də yaxşılaşdırmışdır. Belə ki, 2017-ci ildə informasiya və rabitə xidmətlərinin dəyəri 49,7 milyon manat olmuşdur ki, bu da 2016-cı illə müqayisədə 2 faiz çoxdur.

Muxtar respublikanın iqtisadi inkişafında energetika sisteminin özünəməxsus yeri vardır. Qısa müddət ərzində elektrik stansiyalarının sayı 8-ə çatdırılmış, Naxçıvan Muxtar Respublikası elektrik enerjisi idxal edən regiondan elektrik enerjisi ixrac edən regiona çevrilmişdir. Enerji təchizatında alternativ və bərpaolunan enerji mənbələrinə xüsusi əhəmiyyət verilmiş, 2017-ci ildə Günəş Elektrik Stansiyasının gücü 2 meqavat artırılaraq 22 meqavata çatdırılmışdır. Hazırda Ordubad SES-in tikintisi davam etdirilir. Muxtar respublika əhalisi və bütün təsərrüfat subyektləri mavi yanacaqla tam təmin olunmuşdur.

Həyata keçirilən tədbirlər sosial problemlərin də həllinə öz təsirini göstərmiş, işlə təminat yaxşılaşmış, minlərlə yeni iş yerləri açılmış, orta aylıq əməkhaqqı, əhalinin pul gəlirləri durmadan artmışdır. Sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, içməli su ilə təchizatı məsələsinə, sosial müdafiəsinə xüsusi diqqət və qayğı göstərilir. Səhiyyə sisteminin yenidən qurulması, əhalinin sağlamlığının daha yaxşı təşkili bu sahədə yeni texnologiyaların tətbiqi və kadr potensialının hazırlanmasını özündə əks etdirən dövlət proqramları uğurla həyata keçirilir. 1995-2017-ci illərdə muxtar respublikada 276 səhiyyə obyekti tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilmişdir.

Xalqların və dövlətlərin sürətli inkişaf yolu elm və təhsildən keçir. Təsadüfi deyildir ki, vaxtilə ulu öndər Heydər Əliyev cəmiyyət həyatında təhsilin və elmin rolunu yüksək qiymətləndirərək demişdir ki, ***təhsil millətin gələcəyidir, iqtisadiyyat hansı vəziyyətdə olursa olsun, elm inkişaf etməlidir.*** Ölkə Prezidenti cənab İlham Əliyev də elm və təhsilə ***"Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahələr"*** kimi yüksək dəyər vermişdir. Təhsilə, elmə, onların inkişafına xüsusi əhəmiyyət verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Təhsil elə səviyyədə olmalıdır ki, o, insanlara yeni texnologiyaları çevik mənimsəmək, əmək bazarında və şəxsi həyatda layiqli yer tutmaq, sağlam həyat tərzi, ətraf mühitə və cəmiyyətdə gedən proseslərə münasibətdə düzgün mövqe seçmək imkanı yaratsın".*** Ali Məclisin Sədri qeyd etmişdir ki, muxtar respublikanın elmi-texniki potensialını qorumaq və inkişaf etdirmək lazımdır. Sosial-iqtisadi inkişaf ilə elmin inkişaf strategiyası bir-biri ilə əlaqələndirilməlidir. Muxtar respublikada təhsilin yeniləşdirilməsi və keyfiyyətə nail olunması, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, təhsil sahəsində müxtəlif proqramların həyata keçirilməsi istiqamətində fəal iş aparılmışdır. Nəticədə, zəngin biliyə, hərtərəfli intellektual səviyyəyə malik, fiziki və mənəvi cəhətdən sağlam gənclər yetişir.

Təhsilə göstərilən qayğı öz bəhrəsini vermiş, 2017-ci ilin qəbul imtahanlarında iştirak edən abituriyentlərin 1735-i ali, 629-u isə orta ixtisas məktəblərinin tələbəsi adını qazanmışdır. Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 211 nəfəri müxtəlif ali hərbi məktəblərə qəbul olmuşdur. Məktəbi yüksək nəticələrlə başa vuran 15 məzun qızıl, 6 məzun gümüş medala, 113 məzun isə fərqlənmə attestatına layiq görülmüşlər. Həmin məzunlar qəbul imtahanlarında onlara göstərilən etimadı doğruldaraq 500-700 arası bal toplayıblar. Ümumiyyətlə, imtahan verən məzunlardan 289-u 500-700 arasında bal toplayıb, 3 nəfər Prezident təqaüdünə layiq görülüb.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 3 orta ixtisas və 3 ali məktəbin – Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun həyatında da ciddi dəyişikliklər baş vermişdir. Hazırda muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində 100-dən çox ixtisas üzrə kadrlar hazırlanır. Ali təhsil müəssisələrində 84 ixtisas üzrə 7486 tələbə təhsil alır ki, onların təlim-tərbiyəsi ilə 462 professor-müəllim heyəti məşğul olur.

Ali Məclis Sədrinin təşəbbüsü və ulu öndər Heydər Əliyevin Sərəncamı ilə 2002-ci ildə AMEA Naxçıvan Bölməsi yaradıldı. Naxçıvan Bölməsinin yaradılması elmi mühitin canlanmasına, Naxçıvanın hərtərəfli öyrənilməsinə, yüksəkixtisaslı elmi kadrların hazırlanmasına geniş imkanlar açdı. 13 nəfər fəlsəfə doktoru ilə fəaliyyətə başlayan AMEA Naxçıvan Bölməsində hazırda 2 akademik, AMEA-nın 5 müxbir üzvü, 5 elmlər doktoru, 56 fəlsəfə doktoru, xeyli sayda doktorant və dissertant fəaliyyət göstərir. 2017-ci ildə bölmə əməkdaşlarının 767 əsəri, o cümlədən 33 monoqrafiyası, 17 kitabı, 2 atlası nəşr olunmuşdur.

İnkişaf səviyyəsinə görə muxtar respublikanın heç bir dövrünü 1995-2017-ci illərlə müqayisə etmək olmaz. Bu, mədəniyyət və turizm sahəsinə də aiddir. Muxtar respublikanın bölgələrində inşa olunan 100-dən çox kənd mərkəzlərində kitabxanalar və mədəniyyət obyektləri üçün nümunəvi şərait yaradılmışdır. Yeni tikilən xidmət mərkəzləri də kənd əhalisinə nümunəvi xidmət göstərən ticarət və xidmət obyektləridir.

Qədim tarixə malik diyarımızda muzeylərin fəaliyyətlərinin canlandırılması, yeni muzeylərin yaradılması istiqamətində işlər ardıcıl xarakter alıb. Hazırda muxtar respublikada 30 muzey fəaliyyət göstərir. Ali Məclis Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Duz Muzeyi yaradılmış, Şahtaxtinskilər Muzeyi yenidən qurulmuş, Şərur Rayon Tarix-Diyarşünaslıq Muzeyi üçün yeni binanın tikintisinə başlanmışdır.

Muxtar respublikada turizmin inkişafını nəzərdə tutan kompleks tədbirlərin görülməsi, muxtar diyarın təhlükəsiz regiona çevrilməsi, yol infrastrukturunun yüksək səviyyədə yaradılması və digər amillər buraya gələn turistlərin sayını ildən-ilə artırır. 2016-cı ildə muxtar respublikaya 403 min turist gəlmişdirsə, 2017-ci ildə turistlərin sayı 413 mindən çox olmuşdur.

Naxçıvan ərazisindəki tarix və mədəniyyət abidələri ikinci həyatını yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 6 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrə uyğun olaraq muxtar respublika ərazisində 1218 tarix və mədəniyyət abidəsi qeydə alınmış və pasportlaşdırılmışdır. 60-dan çox tarix və mədəniyyət abidəsi bərpa edilmişdir.

*Naxçıvan Muxtar Respublikasında əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də həyatın bütün sahələrində çox böyük uğurlara imza atılmış, yüksək nailiyyətlər qazanılmışdır. İqtisadiyyatın, kənd təsərrüfatının, elm, təhsil, mədəniyyət, səhiyyə və başqa sahələrin heç biri diqqətdən kənarda qalmamış, ilbəil müvəffəqiyyətlər artmışdır. Elə bunun nəticəsidir ki, muxtar respublikanın inkişaf və tərəqqisi beynəlxalq reytinq agentliklərinin diqqətini cəlb etmiş, onlar dərin iqtisadi islahatlar və sabitləşmə ili olan 2017-ci ildəki nailiyyətlərə görə muxtar respublikamızı illik investisiya reytinqlərində ən yüksək bal topladığı üçün birinci yerə layiq görmüşlər. Bu da Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafın artan dinamika ilə getdiyini bir daha təsdiq edir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Çox şadam ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır. Son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var".***

**İsmayıl HACIYEV**
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*

## "Caspian European Club"un sədrinin birinci müavini: *"Naxçıvan Muxtar Respublikası investisiya baxımından da cazibədar məkandır"*

***Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu "Caspian European Club" Azərbaycanın iqtisadi regionlarının 2017-ci il üçün illik investisiya reytinqini hazırlayıb. Azərbaycan regionlarının investisiya reytinqinin lideri ən yüksək ümumi bal toplamış Naxçıvan Muxtar Respublikası olub. "Caspian European Club"un sədrinin birinci müavini Telman Əliyevlə söhbətimiz də bu mövzuda oldu. Telman Əliyev əvvəlcə təşkilatın fəaliyyət istiqamətləri barədə danışaraq dedi:***



– Məlum olduğu kimi, "Caspian European Club" dünyanın 70 ölkəsinin 5 mindən artıq şirkət və təşkilatını birləşdirən, dinamik inkişaf edən regional təşkilatlardan biridir. Təşkilatımız 2002-ci ilin iyun ayında "Caspian Energy International Media Group"un iştirakı və Xəzər-Qara dəniz regionunda fəaliyyət göstərən neft-qaz şirkətlərinin dəstəyi ilə təsis edilib. Yarandığı ilk gündən "Caspian European Club"un sədri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir.

Klubun əsas hədəfi neft sahəsindən əldə olunan gəlirləri qeyri-neft sektorunun inkişafına cəlb etmək, iqtisadiyyat, energetika, gömrük, vergi, ətraf mühitin mühafizəsi və sair məsələlər üzrə ümumi proqramın hazırlanması üçün informasiya səviyyəsində lazımi şəraitin formalaşdırılmasında iştirak etmək, xarici və yerli biznes nümayəndələrinin problemlərinin sistematik öyrənilməsi və bu məlumatların Prezident Administrasiyası, hökumət, parlament və iqtisadi bloka nəzarət edən dövlət qurumlarına çatdırmaqdır. Eyni zamanda təşkilat əlverişli investisiya və biznes mühitinin yaradılmasını şərtləndirən proqram və təklifləri həyata keçirir, regional əhəmiyyətli müxtəlif informasiya layihələrini gerçəkləşdirir, biznes-forum, dəyirmi masa və işçi qruplar çərçivəsində dövlət qurumları ilə özəl sektor arasında dialoqu dəstəkləyir.

Onu da qeyd edim ki, "Caspian European Club" dünyanın 70 ölkəsində investisiya reytinqi hazırlayır və hər bir ölkədə lider region seçir. "Caspian European Club"un sədri cənab İlham Əliyevin qarşıya qoyduğu məqsəd ondan ibarətdir ki, reytinq siyahısı hazırlanarkən müşahidə edilən müsbət hallar ölkəmizdə tətbiq olunsun. 2017-ci il üçün investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ölkəmizin iqtisadi regionları içərisində ilk pillədə qərarlaşması xarici ekspertlər tərəfindən də yüksək qiymətləndirilir. Xüsusilə muxtar respublikada alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin ümumi enerji istehsalında 60 faizdən çox olması, yüksək standartlara uyğun yeyinti məhsullarının istehsal edilməsi, müasir turizm infrastrukturu, biznes və investisiya mühiti üçün yaradılan şərait ekspertlər tərəfindən düzgün idarəetmənin nəticəsi kimi dəyərləndirilib. Təsəvvür edin ki, inkişafına görə seçilən Avropa qitəsində belə, 60 faiz alternativ və bərpaolunan enerjidən istifadə edən ölkə yoxdur. Bu baxımdan ölkənin iqtisadi regionları üzrə 18 parametr üzrə hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxması heç də təsadüfi deyil.

Bununla əlaqədar yanvarın 23-də Heydər Əliyev Muzeyində tədbir keçirildi. Həmin tədbirin məhz Heydər Əliyev Muzeyində keçirilməsi mühüm əhəmiyyətə malikdir. Çünki muxtar respublikanın, bütövlükdə, ölkəmizin inkişafı ulu öndərimizin adı, Onun siyasi xəttinin uğurla davam etdirilməsi ilə bağlıdır. Tədbirdə bu məqamlar, xüsusilə vurğulandı.

Onu da qeyd etmək istərdim ki, mən ilk dəfədir, Naxçıvana gəlirəm. Muxtar respublikada infrastruktur yüksək səviyyədə qurulub, çəkilən yollar, tikilən binalar çox gözəldir. Naxçıvan Muxtar Respublikası investisiya baxımından da cazibədar məkandır. Muxtar respublikada bir sıra əhəmiyyətli sahələr üzrə müsbət təcrübə formalaşıb. Bu mənada, Naxçıvan təcrübəsindən çox şey öyrənmək olar. Burada görülən işlər, həyata keçirilən əhəmiyyətli tədbirlər bir daha belə deməyə əsas verir ki, muxtar respublika bundan sonra da nümunə olaraq qalacaqdır.

**Tural AĞAYEV**

*Təhsil millətin gələcəyidir*

## Müasir texnologiyalar ali təhsil sistemində uğurla tətbiq olunur

*Təhsil sağlam cəmiyyətin formalaşmasında başlıca amildir. Ümummilli lider Heydər Əliyevin* ***"Təhsil millətin gələcəyidir"*** *müdrik kəlamında da ifadə edildiyi kimi təhsil olmadan inkişaf mümkün deyil.*



Müasir texnologiyaların təhsilə tətbiqi nəticəsində "Distant təhsil", "Elektron imtahan", "Elektron test" kimi yeni üsullar yaradılıb. Bu üsullardan istifadə öz nəticələrini göstərib. Fərəhli haldır ki, bu gün Naxçıvan Dövlət Universitetində də müasir təhsil texnologiyalarından səmərəli istifadə olunur. Ötən günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə universitetin Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi, ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə burada distant təhsilin tətbiqinə başlanılması ali təhsil ocağının dünya təhsil sisteminə inteqrasiyasını daha da sürətləndirmək, təhsilin səviyyəsini yüksəltmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Universitetin təhsil həyatında qazandığı uğurlardan biri də elektron test imtahanlarının tətbiqidir. Naxçıvan Dövlət Universitetinin Elektron imtahan komissiyasının rəhbəri Hüseyn Qasımov semestr imtahanlarının elektron test üsulu ilə keçirilməsini operativlik, obyektivlik, şəffaflıq, mövzuların tam əhatəsi və cavablandırmanın asan olması baxımından daha üstün hesab edir. O bildirdi ki, ali təhsil ocağında elektron test üsulu ilə imtahanların keçirilməsinə ilk dəfə 2012-ci ilin dekabr ayında başlanılıb. Bu addımla təhsilin inkişafı istiqamətində ciddi islahata imza atılıb. Tələbələrin semestr imtahanlarında tətbiq olunan bu üsul uğurlu nəticələr verməkdədir. Naxçıvan Dövlət Universitetinin Tədris və Elektron təhsil şöbələrinin təşkilatçılığı ilə elektron üsulla imtahan keçirilməsi nəzərdə tutulan bütün fənlər üzrə test bankı yaradılaraq universitetin rəsmi internet səhifəsində yerləşdirilir ki, bu da tələbələrin imtahanlara daha yaxşı hazırlaşmaları üçün böyük imkanlar yaradır.

Universitetdə bir sıra üstünlüklərə malik olan yeni kompüter proqramı hazırlanıb. Elektron imtahan qaydalarının mənimsənilməsi məqsədilə dəfələrlə sınaq-test imtahanları keçirilib, müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmuş imtahan auditoriyaları yaradılıb. Həmin auditoriyaların dördündə eyni vaxtda 228 tələbə imtahan verə bilir. Gün ərzində universitetdə 80-ə yaxın imtahan keçirilir.

Hüseyn müəllim bu il Naxçıvan Dövlət Universitetində, ümumilikdə, 1160 imtahanın elektron test üsulu ilə keçiriləcəyini bildirdi. Diqqətimizə çatdırdı ki, imtahan sualları dekabr ayının 1-dən universitetin saytında yerləşdirilib. Tələbə imtahan zalında kompüter arxasında oturur, özünə uyğun parametrləri seçir və imtahan başlayır. Mərkəzi kompüterdən suallar təqdim olunur və bir saat ərzində kompüterin köməyilə minimum 17 sualı cavablandıran hər bir tələbə imtahanı məqbul vermiş hesab olunur. İmtahanın bitdiyi təsdiqləndikdən 30 saniyə sonra nəticələr ilə bağlı məlumat ekranda görünür. Tələbənin, ümumiyyətlə, təhsil kreditini ödəməsi üçün cari qiymətləndirmə ilə imtahan qiymətinin cəmi 51 baldan yuxarı olmalıdır.

Hüseyn Qasımov onu da bildirdi ki, elektron test üsulu ilə imtahanların keçirilməsinin üstünlüyü burada təhsildə keyfiyyət amilinin əsas götürülməsidir. Bu, obyektivlik və şəffaflığın ən mühüm göstəricisidir.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 30 avqust tarixli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 noyabr tarixli Sərəncamından sonra ödənişli əsaslarla oxuyan tələbələrin də təqaüd almaq şansı yaranıb. Məhz buna görə də tələbələr çalışırlar ki, yaxşı oxusunlar və imtahanlarda uğurlu nəticələr əldə etsinlər. Bu da onu göstərir ki, elektron test üsulu həm də sağlam rəqabəti gücləndirir.

Universitet tələbələri, o cümlədən burada təhsil alan əcnəbi tələbələr elektron test üsulu ilə imtahanın biliklərin şəffaf, obyektiv qiymətləndirilməsi baxımından daha əlverişli olduğunu bildirdilər.

Naxçıvan Müəllimlər İnstitutunda isə imtahanlar digər ali təhsil ocaqlarından fərqli olaraq yazılı formada keçirilir. Pedaqoji fakültənin dekanı, dosent Azad Novruzov bildirdi ki, Naxçıvan Müəllimlər İnstitutunda da dərslər Bolonya sisteminə uyğun keçilir. Müəllimlərin və nəzarətçi-koordinatorların rəhbərliyi altında hər bir tələbə beş sualdan ibarət bileti 3 saat ərzində yazılı şəkildə cavablandırır. Qiymətləndirmə isə bütün universitetlərdə olduğu kimi, burada da eyni qayda ilə aparılır.

Azad müəllim onu da qeyd etdi ki, düzdür, texnologiyanın inkişafı elektron test üsuluna daha çox üstünlük verilməsinə şərait yaradıb. Bu üsul həm ali məktəbin idarəetmə strukturu üçün əlverişlidir, həm də müəllim və tələbə heyəti üçün rahatdır. Buna baxmayaraq, Müəllimlər İnstitutu təhsilin inkişafı və pedaqoji kadrların savadlı yetişməsi, onlarda özünüifadə və yazı üslubunun formalaşması üçün yazılı imtahanı daha əlverişli hesab edir. Bu semestrdə bakalavr üzrə əyani şöbədə yazılı şəkildə 266 imtahan keçiriləcək.

Azad Novruzovun sözlərinə görə, yazılı imtahanlara hazırlıq zamanı, test üsulundan fərqli olaraq tələbə öz fikirlərini daha sərbəst ifadə etmək üçün daha çox araşdırır, öyrənir, müxtəlif ədəbiyyatlardan istifadə edərək biliyini zənginləşdirir.

"Naxçıvan" Universitetində isə elektron test üsulu ilə imtahanların keçirilməsinə üstünlük verilir. Ali məktəbin İnformasiya-kommunikasiya texnologiyaları şöbəsinin müdiri Rəşad Abbasov qeyd edir ki, bu semestrdəki imtahanların sayı, ümumilikdə, 350-dir. Onlardan 222-si elektron test üsulu ilə keçiriləcək. İmtahanların başlanmasından iki həftə əvvəl test sualları internetdə yerləşdirilir. İmtahanlara 2 saat vaxt verilir. Universitetdə 3 kompüter otağı fəaliyyət göstərir ki, bu otaqlardan ikisində 66, birində isə 48 tələbə imtahan verə bilir. Yazılı imtahanda tələbəyə güzəşt etmək və ya balını kəsmək kimi hallara təsadüf edilirsə, elektron test üsulundakı obyektivlik və şəffaflıqla bunun qarşısı alınır. Test üsulu ilə imtahan verən tələbənin müəyyən vasitələrdən istifadə etmək, köçürmək imkanı olmur. Otaqlarda quraşdırılmış kameralarla imtahanlara nəzarət olunur. Həmçinin aylıq kollekviumları da, əsasən, test üsulu ilə təşkil edirik. Bu üsul tələbələri daha yaxşı oxumağa, öz üzərlərində çox işləməyə sövq edir, tələbələr arasında rəqabəti gücləndirir.

"Naxçıvan" Universitetinin saytında "Elektron universitet" adlı bölmə də yaradılıb. Bu bölmədə tələbələr haqqında ümumi məlumatlar, o cümlədən onların dərsə davamiyyəti, müxtəlif sahələrdə aldıqları mükafatları, qabiliyyət göstəriciləri, semestr balları, auditoriyada neçənci sırada olduqları barədə məlumat yerləşdirilib. Bu sistem sayəsində tələbələrə anonim anketlər ünvanlaya bilirik. İsmarıc bölməsi vasitəsilə tələbələr dekanlarına, tyutorlarına və onlara dərs deyən müəllimlərə suallarla müraciət edə, eyni zamanda özlərinə ünvanlanan sualları cavablandıra bilirlər. Bu sistem gələcəkdə distant təhsilin tələbə-müəllim ünsiyyəti formasında inkişafına kömək edəcək.

Rəşad müəllim onu da bildirdi ki, gələcəkdə universitetdə digər imtahanlara da elektron test üsulunun tətbiq edilməsi nəzərdə tutulur. Vaxt problemini nəzərə alaraq bu tətbiq əvvəlcə sınaqdan keçiriləcək. Əgər qənaətbəxş olarsa, müəllimlərə panellər veriləcək, onlar lazımi seçimləri etməklə imtahanı asanlıqla yoxlaya biləcəklər.

Göründüyü kimi, yaşadığımız XXI əsr həyatımızın bütün sahələrində yenilikləri tətbiq edilməsini tələb edir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" son illər ərzində təhsilin inkişafı istiqamətində mühüm nailiyyətlərin əldə olunmasına gətirib çıxarıb. Bütün bunlar imtahanlarda tələbələrin öz bilik və bacarıqlarının sərbəst şəkildə üzə çıxarılmasına imkan verir.

**Güntac ŞAHMƏMMƏDLİ**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq aztəminatlı ailələrin özünüməşğulluğunun təmin edilməsi üçün müxtəlif sosial layihələr həyata keçirilir.***

## Aztəminatlı ailələrin özünüməşğulluğu ilə bağlı tədbir



Ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə uzun müddət ünvanlı dövlət sosial yardımı alan və fərdi təsərrüfatlarını qurmaq üçün müraciət edən ailələrə köməklik göstərilməsi nəzərdə tutulub. Verilmiş tapşırığın icrası ilə əlaqədar müraciət edənlər içərisində Şərur, Babək, Ordubad, Culfa və Sədərək rayonları üzrə, ümumilikdə, 13 aztəminatlı ailə müəyyənləşdirilib. Həmin ailələrdən 12-nə yanında balası olan iribuynuzlu mal-qara, 1-nə isə 10 baş xırdabuynuzlu heyvan verilib.

Bununla əlaqədar keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısı, onların sosial reabilitasiyası və məşğulluğunun təmin olunması istiqamətində görülən işlər barədə danışıb. Sonra aztəminatlı ailə təmsilçilərinə verilən mal-qara ilə bağlı sənədlər təqdim olunub.

Babək rayonunun Nəhəcir kənd sakini Anna Məmmədova göstərilən qayğıya görə minnətdarlığını bildirib, ailə təsərrüfatından səmərəli yararlanacaqlarını diqqətə çatdırıb.

Məlumat üçün bildirək ki, ötən il ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 54 aztəminatlı ailəyə özünüməşğulluğun təmin edilməsi üçün müvafiq köməkliklər göstərilib.

**Nail ƏSGƏROV**

## Şərq Döyüş Sənəti Federasiyasında ilin yekunları müzakirə edilib

***Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasında ötən ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilib.***



Federasiyanın sədri Azad Cabbarov çıxış edərək bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət idman siyasəti sağlam nəslin yetişdirilməsini daim diqqət mərkəzində saxlayıb, gənclərin əsas hərəkətverici qüvvə olaraq cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi həyatında, idman hərəkatında iştirakının təmin edilməsini prioritet olaraq müəyyən edib. Hazırda bu siyasət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında da gənclərin kütləvi bədən tərbiyəsi və idman tədbirlərinə cəlb olunması, istedadlı idmançıların respublika və beynəlxalq səviyyəli idman yarışlarında iştirakının təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə idmançılara bütün zəruri imkanlar yaradılıb, muxtar respublikanın bütün şəhər və rayonlarında ən son standartlara cavab verən müasir idman infrastrukturu formalaşdırılıb. Müxtəlif idman növləri üzrə inkişafın və kütləviliyin təmin edilməsi məqsədilə 12 federasiya yaradılıb ki, bunlardan da biri 2002-ci ildən fəaliyyətə başlayan Şərq Döyüş Sənəti Federasiyasıdır. Federasiya kikboksinq, budo, uşu-sanda, MMA, universal döyüş və digər əlbəyaxa döyüş idman növlərini özündə birləşdirir, bu idman növlərinin muxtar respublikada inkişafını və təbliğini təmin edir. Federasiya beynəlxalq idman təşkilatlarında Naxçıvan Muxtar Respublikasının təmsil olunması, bu kateqoriyaya aid idman növləri üzrə yerli idmançıların peşəkarlıq səviyyələrinin artırılması, onların respublika, Avropa və dünya çempionatlarında, digər beynəlxalq yarışlarda çıxışlarını təmin etmək məqsədilə yaradılıb.

Azad Cabbarov vurğulayıb ki, Şərq Döyüş Sənəti Federasiyasının hazırda, ümumilikdə, 9 bölməsində 13-ü qız olmaqla, 300-dən artıq yeniyetmə və gənc bu idman növləri üzrə keçirilən təlim-məşq toplanışlarında, hazırlıq proseslərində iştirak edir. Ötən il ərzində Şərq Döyüş Sənəti Federasiyasının İdarə Heyəti yenidən formalaşdırılıb, maddi-texniki bazası möhkəmləndirilib, muxtar respublikaya dəvət edilmiş tanınmış mütəxəssislərin iştirakı ilə yerli idmançılar üçün seminar və məşğələlər keçirilib.

Qeyd edilib ki, 2017-ci ildə federasiya respublika birinciliklərində 52, dünya çempionatında 3, Avrasiya çempionatında 13, Asiya çempionatında 2, digər beynəlxalq turnirlərdə 5 iştirakçı ilə təmsil olunub. İdmançılarımız Azərbaycan birinciliklərində 54, dünya çempionatında 2, Avrasiya çempionatında 13, Asiya çempionatlarında 2, digər beynəlxalq turnirlərdə 6 medal olmaqla, cəmi 78 medal qazanıblar.

Azad Cabbarov diqqətə çatdırıb ki, bölgələrdə idman növlərinə maraqgöstərən istedadlı yeniyetmə-gənclərin keçirilən hazırlıq və təlim-məşq toplantılarında iştirakı, idmanın müxtəlif növləri üzrə təbliğat fəaliyyətinin genişləndirilməsi, yeni idman avadanlıqları və müasir idman infrastrukturundan istifadə imkanları barədə maarifləndirici söhbətlər aparılması qarşıda duran əsas vəzifələrdəndir.

Sonda gələcək tədbirlərlə bağlı fikir mübadiləsi aparılıb.

**Ceyhun MƏMMƏDOV**

*Gəncliyimiz, gələcəyimiz*

## Sənətdə öz yolunu tutan gənc rəssam

***Son illərdə rəssamlıq sənətində daha çox müraciət olunan janrlardan biri hiperrealizmdir. Bu mövzuda gənc istedadlar elə əsərlər yaradırlar ki, onların çəkdikləri portretləri adi fotolardan fərqləndirmək çətin olur. Həmsöhbət olduğumuz Zülfüqar Həsənli də məhz belə gənc istedadlardandır. Yaşının az olmasına baxmayaraq, onun rəsm əsərləri çoxlarının diqqətini cəlb edir. Gənc rəssam Zülfüqarla müsahibəni oxucularımıza təqdim edirik.***

***– Özünüz haqqında bir qədər məlumat verməyinizi xahiş edirik.***

– 1993-cü ildə Ordubad rayonunda anadan olmuşam. Məhəmməd Tağı Sidqi adına Ordubad şəhər 1 nömrəli tam orta məktəbdə təhsil almışam. 2015-ci ildə isə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin Rəngkarlıq ixtisasına qəbul olunmuşam. Hazırda 3-cü kursda təhsilimi davam etdirirəm. Kiçik yaşlarımdan rəssamlığa maraq göstərmişəm. Rənglərin cazibəsi məni öz sehrinə salıb. İlk rəsmimi 1-ci sinifdə oxuyarkən çəkmişdim. “Məlikməmmədin nağılı”ndakı divlə Məlikməmmədi təsvir etmişdim. Müəllimim həmin rəsmi görəndə “sən rəssam olacaqsan”, – demişdi. O vaxtlar tam mənasıyla rəssamlığın nə demək olduğunu dərk etməsəm də, sevimli məşğuliyyətimi davam etdirirdim. İlk dəfə V sinifdə oxuyarkən rəsm müsabiqəsində iştirak etdim. Sonralar daha çox müsabiqələrə qatıldım.

Xocalı soyqırımına həsr olunmuş müsabiqədə çəkdiyim rəsmlərlə birinci yerə layiq görüldüm. X sinifdə oxuyarkən tələbələrlə birgə müsabiqədə iştirak etdim. Məktəbli kimi burada birincilik əldə etməyim mənim üçün böyük fəxr idi. Eyni zamanda xarici ölkələrdə təşkil olunan müsabiqələrdə də iştirak etmişəm.



İki dəfə Türkiyədə, bir dəfə isə İranda keçirilən müsabiqədə qalib gəlmişəm. 2008-ci ildə Ordubad Rayon Mədəniyyət Evində fərdi sərgim də təşkil olunub.

***– Sənət və sənətkar haqqında düşüncələriniz də oxucularımız üçün maraqlı olar.***

– Müxtəlif sənət növləri mövcuddur – bəstəkarlıq, müğənnilik, aktyorluq və sair. Bu sənət növləri vasitəsilə əsas ideyanı incə detalları ilə sənətsevərlərə çatdırmaq çox çətindir. Yalnız bunu bacaran insanlar əsl sənətkar adlanır. O insanlar ki həmin sənətin peşəkarıdırlar, o sənətlə nəfəs alırlar. Onların əməyi də yüksək qiymətləndirilir. Çoxlarımız bunun canlı şahidiyik. Muxtar respublikada bütün sənət adamları hərtərəfli qayğı ilə əhatə olunublar. Onların problemlərinə həssaslıqla yanaşılır, sənətkarların yaradıcı fəaliyyətinə hər cür şərait yaradılır.

***– Hər bir sənət adamının öz ilham mənbəyi var...***

– Kiçik bir nüansda məna axtarıram. Bir rəsmi çəkmək üçün mənə bəzən bir musiqi, melodiya belə, ilham verə bilər. Amma daha çox təbiətdən ilham alıram. Doğma yurdumuzun təbiəti hər bir sənət adamı üçün əsrarəngiz ilham mənbəyidir.

***– Ən çox bəyəndiyiniz, bəhrələnmək istədiyiniz rəssamlar kimlərdir?***

– Azərbaycanlı rəssamlardan Səttar Bəhlulzadə və Tahir Salahovu çox sevirəm. Pikasso, Van Qoq, Salvador Dali isə xarici rəssamlar arasında daha çox sevdiyim rəssamlardır ki, onların çəkdikləri əsərlər məni valeh edir.

***– Gələcək planlarınız barədə nə deyə bilərsiniz?***

– Naxçıvan Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda mütəmadi olaraq təşkil edilmiş sərgilərdə mənim də rəsmlərim nümayiş etdirilir. Ancaq bununla kifayətlənmək istəmirəm. Universiteti bitirəndən sonra Naxçıvan şəhərində fərdi sərgimi təşkil etməyi düşünürəm. Çoxdandır ki, bunun arzusundayam.

*– Bu və digər arzularınıza çatmağı, tanınmış bir rəssam kimi doğma Naxçıvanımızı, ölkəmizi öz fırçanızla dünyaya tanıtmağınızı arzu edirik.*

**Nəzrin MƏMMƏDOVA**
*Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi*

***Yanvarın 24-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Film Fondunda nazirliyin sistemində olan müəssisələrdə fəaliyyət göstərən gənclər üçün “Naxçıvanda islami dəyərlər və onların qorunması” mövzusunda tədbir keçirilib.***

## “Naxçıvanda islami dəyərlər və onların qorunması” mövzusunda tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təhsil müəssisələri ilə iş üzrə baş məsləhətçisi Kənan Tağızadə çıxış edərək bildirib ki, 2009-cu il oktyabrın 14-də Bakıda keçirilən İslam ölkələrinin mədəniyyət nazirlərinin IV konfransında Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunub. Bu gün keçirilən tədbirin məqsədi də gəncləri İslam mədəniyyəti və dəyərləri ilə tanış etmək, onları maarifləndirməkdir.

Qeyd edilib ki, Azərbaycanda İslam dini VII-VIII əsrlərdə yayılıb və xalqımızın milli-mənəvi dəyərlərinin əsasını təşkil edir. Bu gün iftixar hissi ilə deyirik ki, Azərbaycanın İslam mədəniyyəti ilə bağlı olan dahi insanları – Nizami Gəncəvi, Məhəmməd Füzuli, Nəsirəddin Tusi, Qətran Təbrizi və bir çox digər böyük şəxsiyyətləri dünya sivilizasiyasına böyük töhfələr verib və İslam mədəniyyətini zənginləşdiriblər.

Bildirilib ki, dünyada mövcud olan dinlər arasında İslam dini özünəməxsus yerə malikdir. Biz azərbaycanlılar İslam dini ilə bağlı dəyərləri yaşatmaqla yanaşı, bütün dinlərə ehtiramla yanaşır, dini tolerantlıq nümunəsi göstəririk. Azərbaycanlılar əsrlər boyu xristianlarla, yəhudilərlə dinc, yanaşı yaşayıblar və indi də yaşayırlar. Tolerantlığın Azərbaycan nümunəsi bir daha dünyaya sübut edir ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, birgə, sülh şəraitində yaşaya bilərlər.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin baş məsləhətçisi, hüquqşünas Bəhruz Gülmalıyev bildirib ki, muxtar respublikamızda islami dəyərlərə ehtiram dini mərasimlərin yüksək səviyyədə keçirilməsində özünü göstərir. Hər il keçirilən Qurban və Ramazan bayramları ədalət və mərhəmət, şəfqət və xeyirxahlıq duyğuları təlqin etməklə, insanların mənən saflaşmasına, Vətən və xalq üçün birləşməsinə xidmət edir. Bu birlik cəmiyyətimiz və dövlətimiz üçün olduqca mühüm amildir.

Qeyd edilib ki, muxtar respublikamızda dini dəyərlərimizin qorunub yaşadılması istiqamətində həyata keçirilən tədbirlər cəmiyyət tərəfindən rəğbətlə qarşılanır. Ziyarətgahlar bərpa olunur, yeni məscidlər tikilir, dindarlar üçün lazımi şərait yaradılır. Son illər yeni tikilən məscidlər, təmir olunan türk-islam abidələri dövlətin bu sahəyə xüsusi diqqət və qayğı göstərdiyinin bariz nümunəsidir.

Tədbirin sonunda “Naxçıvan-türk-islam mədəniyyəti abidələri” sənədli filmi nümayiş etdirilib.

**Əli RZAYEV**

## Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi

### *muxtar respublika gömrük orqanlarına işə qəbulla bağlı müsabiqə elan edir*

Naxçıvan Muxtar Respublikasının gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi qaydası Ali Məclis Sədrinin 18 noyabr 2010-cu il tarixli Sərəncamı ilə müəyyən olunur.

Muxtar respublika gömrük orqanlarına işə qəbulla bağlı müsabiqəyə ali məktəbləri gömrük işi, maliyyə, iqtisadiyyat, hüquq və beynəlxalq münasibətlər ixtisası üzrə bitirən şəxslər buraxılır. Bir qayda olaraq, namizədlərin yaşı 30-u keçməməlidir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər *www.dgk.nmr.az* internet saytına daxil olmaqla, muxtar respublikanın gömrük orqanlarına işə qəbulla bağlı müəyyən olunmuş elektron ərizə formasını doldurmalıdırlar. Elektron ərizə müsabiqədə iştirak üçün ilkin əsas sayılır. Elektron ərizə ilə qeydiyyat bir ay müddətində – yanvar ayının 25-dən fevral ayının 25-dək davam edəcək. Müsabiqədə iştirakla bağlı elektron ərizə qəbulu başa çatandan sonra qeydiyyatı təsdiqlənmiş şəxslərə imtahanın vaxtı ilə bağlı qeydiyyatdan keçdikləri elektron poçt ünvanı vasitəsilə məlumat veriləcəkdir. Test imtahanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən keçiriləcək.

İkili vətəndaşlığı olan şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə gömrük orqanlarında işləməyə qadir olmayan, dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər, qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş vətəndaşlar müsabiqəyə buraxılmırlar.

Müsabiqə hər bir namizədin gömrük işi üzrə bilik səviyyəsinin, ümumi dünyagörüşünün, gömrük orqanlarında vəzifələrə yararlı və layiqli olmasının müəyyən edilməsi məqsədilə aşkarlıq şəraitində şəffaf üsullarla keçirilir. Müsabiqə test imtahanından və müsahibədən ibarətdir.

Xarici dil bilən (əsasən rus və ingilis) və kompüterdə işləmək bacarığı yüksək olan şəxslərə müsabiqənin müsahibə mərhələsində üstünlük verilir.

***Əlaqə telefonları:***
***(036) 544-49-60; (036) 544-49-72***

***İtmişdir***

Əmirov Əmir Məxsud oğlunun adına olan evin 13319 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 78